UOT: 368.8; JEL: Q10; Q17; G22

Hikmət Səid oğlu HƏMİDOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı,
E-mail: hamidovhikmet@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2025.003.027

MÜASİR DÖVRDƏ AQRAR SAHƏNİN İNKİŞAFINDA SIĞORTA MEXANİZMİNİN NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi müasir dövrdə aqrar sahənin inkişafında sığorta mexanizminin nəzəri aspektlərinin tədqiqindən ibarətdir.

Tədqiqatın metodologiyası olaraq, analiz, sintez, müqayisəli təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir. Eyni zamnda, aqrar sahədə sığorta mexanizminin tətbiqi və onun səmərəliliyinin artırılması istiqamətində tədqiqatları olan alimlərin elmi-metodoloji yanaşmaları diqqət mərkəzində saxlanılmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti ilk növbədə müasir şəraitdə aqrar sahənin inkişafında sığorta mexanizminin təkmilləşdirilməsi ilə əlaqələndirilir.

Tədqiqatın nəticələri: Qlobal təhdidlərin artdığı bir dövrdə strateji sahə olan aqrar sferanın inkişafında sığortanın rolunun artırılması tədbirlərinin və mexanizmlərinin hazırlanmasında istifadə edilmək perspektivləri vardır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi baxımından, qlobal transformasiyalar şəraitində aqrar sahənin inkişafının səmərəli təşkil olunmasında sığorta mexanizminin rolunun vacibliyi əsaslandırılmışdır. Bunlarla bərabər, tərbiq olunan sığorta mexanizminin təsirinin qiymətləndirilməsi və sığorta xidmətlərinin əlçatanlığının təmin olunmasının vacibliyi bildirilmişdir. Aqrar sahənin müxtəlif təyinatlı subyektləri üçün səmərə verə biləcək sığorta mexanizminin hazırlanması və tətbiqi üzrə tövsiyələr ümumiləşdirilmiş və təkliflər verilmişdir.

Açar sözlər: qlobal transformasiyalar, aqrar sahə, sığorta, sığorta mexanizmi, sığorta xidmətləri, sığorta xidmətlərinin əlçatanlığı, aqrar sahənin inkişaf problemləri, aqrar sahənin inkişafında sığortanın rolu.

Giriş

Əhalinin ərzaqla, sənayenin isə xammalla daha yaxşı təmin edilməsi məqsədilə aqrar sahə istehsalının həcminin artırılması zəruridir. Aqrar sahənin inkişafının əsas və ən perspektivli istiqaməti intensivləşdirmədir. Aqrar sahənin səmərəli fəaliyyət göstərməsi üçün onu intensiv əsasda inkişaf etdirmək lazımdır, çünki hazırda intensivləşdirmə bütün təsərrüfat subyektləri, o cümlədən iqtisadiyyatın aqrar sektorunda çalışanlar üçün prioritet fəaliyyətdir. İqtisadiyyatın aqrar sektorunda təsərrüfat subyektləri tərəfindən tələb olunan fəaliyyət nəticələrinin əldə edilməsinin intensiv metodunun öyrənilməsinin aktuallığı, ilk öncə, cəmiyyətin həyatının əsasını təşkil edən əhalinin ərzaq məhsulları ilə təmin edilməsi probleminin həlli ilə müəyyənləşdirilir. Bu baxımdan, intensivləşdirmənin effektivliyi təmin edilməli, ona təsir edən amillərin hərtərəfli nəzərə alınması şərtdir.

Aqrar istehsalın intensivləşdirilməsinin məqsədlərindən biri ölkə sakinlərinin artan tələbatını daha yaxşı ödəmək üçün məhsuldarlığın artırılması və məhsulların keyfiyyətinin yüksəldilməsidir. İntensivləşmə kənd və şəhər əhalisinin maddi-mədəni həyat şəraitinin yaxınlaşmasında önəmli rol oynayır. O, kənd təsərrüfatı əməyinin sənaye əməyinin bir növünə çevrilməsinə, texniki təchizat səviyyəsinə və istehsalın təşkilinə görə kənd təsərrüfatı sahəsini sənaye sahəsinə yaxınlaşdırmağa kömək edir [4, s.19]. Ölkədə kənd təsərrüfatının vəziyyəti aqrar iqtisadiyyatın dinamik inkişafının səmərəli variantlarının axtarışını və təhlilini tələb edir. İntensivləşmə aqrar istehsalın gələcək inkişafının ən önəmli istiqaməti olmaqla, mövcud istehsal vasitələrinin (torpaq sahəsi, baş mal-qara və s.) hər vahidinə düşən maddi, maliyyə və əmək ehtiyatlarından istifadənin optimallaşdırılma-

sına əsaslanır. Aqrar sahə istehsalının intensivləşdirilməsi prosesi zamanı müəyyən risklər meydana çıxır və buna görə onların azaldılması zərurəti yaranır.

Kənd təsərrüfatı istehsalında yaranan riskləri azaltmaq məqsədilə mövcud yolları iki qrupa bölmək olar. Birincisi, risklərin azaldılması strategiyalarıdır ki, bunlara bir çox risk idarəetmə alətləri, o cümlədən, sənayelərin və istehsal üsullarının şaxələndirilməsi, kifayət qədər likvidliyin saxlanması, müxtəlif növ ehtiyatların yaradılması, əlavə gəlir mənbələrinin axtarışı və s. daxildir. İkinci qrup risklərin başqa təsərrüfat subyektlərinə ötürülməsi və bölüşdürülməsi strategiyalarını, o cümlədən, şaquli inteqrasiya və sığortanı birləşdirir. Birinci qrupa daxil olan alətlər, bir qayda olaraq, kənd təsərrüfatı istehsalçıları tərəfindən müstəqil istifadə olunur, ikinci qrupun komponentləri isə müvafiq institusional mühitin və bazar infrastrukturunun olmasını tələb edir [7, s.125].

Aparılan araşdırmalar göstərir ki, kənd təsərrüfatında istifadə olunan digər risklərin idarə edilməsi strategiyaları arasında aqrar sığorta aparıcı mövqe tutur, çünki o, aqrar bazar iştirakçılarının maraqlarının məcmusunu ən optimal şəkildə nəzərə alır və kənd təsərrüfatı istehsalçılarını müəyyən növ risklərdən qoruyur.

Aqrar sahənin inkişafında sığorta mexanizminin formalaşdırılmasına və inkişafına nəzəri yanaşmalar

Sığorta maliyyənin tərkib hissəsi olan iqtisadi kateqoriyadır. Sığortanın iqtisadi mahiyyəti hüquqi və fiziki şəxslərin pul ayırmaları hesabına formalaşan məqsədli fondların yaradılması və onların təbii fəlakətlər və digər hallar nəticəsində dəymiş zərərin ödənilməsi üçün sonradan istifadə edilməsi ilə bağlıdır [5, s.178]. Sığorta institutu kifayət qədər uzun müddət əvvəl yaranıb, lakin bu günə qədər təkmilləşir və iqtisadiyyatın bütün sahələrində yüksək mövqe tutur. Müasir cəmiyyətdə sığorta demək olar ki, bütün sənaye sahələrində dəyən zərərin əvəzinin ödənilməsi üçün universal vasitəyə çevrilmişdir. Sığorta iqtisadi və sosial həyat baxımından böyük önəm daşımaqla insanların təhlükəsizlik, xüsusən də iqtisadi təhlükəsizliyə olan ehtiyaclarını ödəyən xüsusi maliyyə xidmətidir. Sığorta ödənişi baş vermiş və ya yarana biləcək risklərin sığortası şərtləri ilə sığorta olunanlar üçün fərdi qaydada göstərilən müəyyən xidmət növüdür [1, s.9]. Sığorta kənd təsərrüfatı istehsalçısının təsadüfilik amilinin mənfi nəticələrindən asılılığını azaltmağa imkan verir, çünki bu, zərərin ödənilməsinin əsas üsuludur. Bununla belə, sığorta mümkün itkiləri (tam və ya qismən) pul şəklində kompensasiya edir, lakin itirilmiş maddi və qeyri-maddi dəyərləri kompensasiya etmir, yəni təkrar istehsal prosesinin pozulmasını tam aradan qaldıra bilmir.

Aqrar sığorta insanların əkinçiliklə məşğul olmağa başladığı vaxtdan indiyədək uzun tarixə malikdir. Qədim dövrlərdə fermerlər məhsullarını hava şəraitindən və digər risklərdən qorumaq üçün müxtəlif üsullardan istifadə edirdilər. Bu üsullardan bəziləri sehirli və dini ayinlərdən istifadəni əhatə edirdi. XIX əsrdə sığorta sənayesinin inkişafı ilə aqrar sığorta da meydana çıxdı. Aqrar sığorta təklif edən ilk sığorta şirkəti 1848-ci ildə Almaniyada yaradılmışdır. ABŞ-da ilk aqrar sığorta proqramları 1930-cu illərdə Franklin Ruzvelt hökumətinin Yeni Sövdələşmə proqramının bir hissəsi kimi fəaliyyətə başlamışdır [6, s.186].

Biznes fəaliyyətinin aparılması obyektiv olaraq risk və qeyri-müəyyənlik şəraitində idarəetmə qərarlarının qəbul edilməsi zərurəti ilə bağlıdır. Aqrar sahə istehsalında risk mühitinin, xüsusən də bitkiçilikdə öz spesifikliyi var, burada nəticələr təbii-iqlim şəraitinin təsirindən birbaşa asılıdır. Bütün bunlar kənd təsərrüfatı sahibkarlarından son nəticəyə təsir edən risklərin dərindən öyrənilməsini, onların idarə olunmasının optimal metodunun seçilməsini tələb edir. Dünya təcrübəsi sığortanı risklərin idarə edilməsinin ən effektiv üsullarından biri kimi müəyyənləşdirir. Aqrar sənaye istehsalının yüksək risk dərəcəsi və aqrar sığortanın inkişaf səviyyəsinin aşağı olması bu sığorta növünə ehtiyacı aktuallaşdıran əsas amillərdir.

Aqrar sığorta, ilk öncə, konkret təsərrüfat subyektləri arasında iqtisadi münasibətlər sistemidir. Aqrar sığorta mürəkkəbliyi ilə səciyyələnir, belə ki, o, çoxillik bitkilərin, heyvanların, maşınların, evlərin, nəqliyyat vasitələrinin, toxumların, hazır məhsulların, istehsalçının məsuliyyətinin və s. sığortasını özündə cəmləşdirir. Bütün bunlar aqrar sığortanın obyektləridir. Aqrar sığorta elə bir sistemdir ki, onun vasitəsilə kənd təsərrüfatı istehsalçılarının iqtisadi itkilərini müəyyən qədər

ödəmək və onların gəlirlərini qorumaq mümkündür. Habelə, bu sistem fermerləri məhsul istehsalına stimullaşdırmaqla kənd təsərrüfatı istehsalının artırmına kömək edir [2, s.131]. Aqrar sığortanın məqsədi kənd təsərrüfatı istehsalçılarına gözlənilməz amillərlə bağlı itkiləri və riskləri minimuma endirməyə kömək etməkdir. Bu, kənd təsərrüfatında gəlir sabitliyini və davamlılığını təmin etməyə kömək edə bilər. Aqrar sığorta dövlət və özəl sığorta şirkətləri tərəfindən reallaşdırıla bilər. Bəzi ölkələrdə hökumətlər aqrar sığortanı kənd təsərrüfatı istehsalçıları üçün daha əlverişli etmək üçün subsidiyalar verir. Hazırda aqrar sığorta bütün dünyada kənd təsərrüfatı istehsalçıları üçün önəmli vasitədir. Bu, gözlənilməz risklər və dəyişən hava şəraiti qarşısında investisiyalarını qorumağa və gəlir sabitliyini təmin etməyə kömək edir.

Aqrar sığortanın əsas funksiyası, fərdi risklər nəticəsində yaranan və müvafiq mənfi iqtisadi nəticələrə səbəb olan gözlənilməz fövqəladə hadisələr zamanı sığortalıları adekvat sığorta təminatı ilə təmin etməkdir. Buna görə sığorta sosial və iqtisadi müdafiənin təmin edilməsində önəmli rol oynayır və ümumilikdə iqtisadi sabitliyin artırılması üçün vacibdir. Bütün bunlar sığortanın sosial-iqtisadi müdafiə sahələrində və dövlətin, xüsusən də əhalinin iqtisadi dayanıqlığının yüksəldilməsində əsas rolunu müəyyənləşdirir.

Aqrar sığorta bir sıra önəmli funksiyaları yerinə yetirir ki, bunlardan əsası risk funksiyasıdır. O, riskin ilkin yerləşdirilməsi üçün bir proses kimi çıxış edir. Bu funksiyanın tərkib hissəsi kimi təsadüfi sığorta hadisələrinin nəticələri ilə əlaqədar sığorta iştirakçıları arasında pul dəyərinin yenidən bölüşdürülməsi reallaşdırılır. Profilaktik funksiya sığorta fondunun bir hissəsindən istifadə etməklə sığorta riskinin azaldılması tədbirlərinin maliyyələşdirilməsinə yönəldilmişdir. Aydındır ki, potensial sığortaçının maliyyə müdafiəsini əldə etməsi üçün əsas stimul onun şirkətini zərərə sala biləcək sığorta hadisəsi baş verdikdə maksimum sığorta kompensasiyası əldə etməkdir. Bundan əlavə, aqrar sığorta dövlətin iştirak etdiyi əsas sığorta növüdür. Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində kənd təsərrüfatı istehsalının strateji əhəmiyyətini nəzərə alaraq, fermerin sığorta xərclərini azaltmaq üçün dövlət sığorta haqqının müəyyən hissəsini büdcə vəsaiti hesabına subsidiya edir. Hər bir sığortalıya fərdi yanaşma məqsədi ilə dövlət dəstəyi çərçivəsində sığorta şərtlərinin müxtəlif kombinasiyalarını nəzərdə tutan sığorta proqramları fəaliyyət göstərir ki, bu da aqrar sahə istehsalçısının maliyyə imkanlarını nəzərə almağa imkan verir [3, s.8].

Beləliklə, sığortanın rolunu əks etdirən bir sıra əsas istiqamətləri müəyyənləşdirmək olar:

- ✓ gözlənilməz vəziyyətlərin xoşagəlməz nəticəsi riskinin azaldılması;
- ✓ zərər və itkilərin ödənilməsi yolu ilə iqtisadi sabitliyin əldə edilməsi;
- ✓ sığorta fondlarının müvəqqəti sərbəst vəsaitlərinin investisiya fəaliyyətində iştirakı;
- ✓ dövlət büdcəsinin gəlirlərinin sığorta təşkilatlarının mənfəətinin bir hissəsi hesabına doldurulması.

Aqrar sahənin inkişafının intensivləşdirilməsi xeyli dərəcədə aqrar sığorta bazarının fəaliyyətindən asılıdır. Aqrar sığorta bazarının fəaliyyəti onun iştirakçıları arasında risklərin bölüşdürülməsi üçün zəruri olan müəyyən prinsiplərə riayət edilməsi ilə ayrılmaz şəkildə bağlıdır. Sığorta prinsiplərini üç meyara görə təsnif etmək zərurəti yaranır: əsas sığorta prinsipləri; sığorta şirkətinin maliyyə və iqtisadi risklərini neytrallaşdırmaq üçün istifadə olunan prinsiplər; aqrar sahə məhsullarının sığortalanması zamanı tətbiq olunan prinsiplər. Sığortanın əsas prinsiplərinin əks etdirilməsi bizə cəmiyyətdə sığorta münasibətlərinin formalaşması və fəaliyyət göstərməsinin mahiyyətini ortaya qoymağa, xüsusiyyətlərini müəyyənləşdirməyə, sığorta prosesində iştirakla bağlı subyektlərin motivasiya davranışını aydınlaşdırmağa imkan verir. Aqrar sahədə istifadə olunan aqrar sığortanın əsas prinsiplərini şərh edək.

1. Riskin sığortalanması. Ətraf mühitdə risklərin olması sığorta bazarının formalaşması və fəaliyyət göstərməsi üçün fundamental əsas hesab olunur. Risklərin yaranması prosesi onların ödəniş, məsuliyyət və nəzarət əsasında sığorta prosesinin maraqlı iştirakçıları arasında bölüşdürülməsini və yenidən bölüşdürülməsini əvvəlcədən müəyyənləşdirir. Risklərin bölüşdürülməsi şəraitində sığorta müqavilələrinə xidmət göstərmək məqsədi ilə sığorta bazarının subyektləri ilə onların maliyyə-iqtisadi resursları arasında hüquq və vəzifələrin diferensiallaşdırılması mövcuddur.

Sığorta prosesinin keyfiyyəti və səmərəliliyi daha çox sığorta bazarında risklərin rasional bölüşdürülməsindən və yenidən bölüşdürülməsindən asılıdır.

2. Sığorta marağı. Bu prinsipə riayət etməklə sığorta xidmətlərinə tələb və təklif formalaşır. Sığorta marağı nümayiş etdirən sığorta şirkətləri sığorta müqavilələri bağlamaqda, sığorta sahəsini genişləndirməkdə, sığorta haqlarını toplamaqda və sığorta biznesini genişləndirməkdə maraqlıdırlar. Habelə, sığortaçılar mövcud sığorta maraqlarını reallaşdıraraq əmlak və şəxsi risklərinin zərərsizləşdirilməsində maraqlıdırlar.

3. Maksimum dürüstlük. Bu prinsipin əsasən mənəvi-psixoloji tərəfi var. Sığorta subyektləri arasında qarşılıqlı əlaqə sığorta müqaviləsinin şərtlərinin bağlanması, tətbiqi və icrası prosesində aşkarlıq, demokratiklik və şəffaflıq prinsipləri əsasında reallaşdırılmalıdır. Effektiv əməkdaşlığın vacib şərti həm sığortalı tərəfindən sığorta obyekti ilə bağlı məlumatların etibarlılığının təmin edilməsi, həm də sığorta müqaviləsində nəzərdə tutulmuş şərtlərə uyğun olaraq sığortaçının maliyyə öhdəliklərini yerinə yetirməsidir.

4. Françayzinq. Sığortanın əmlak növü sığortaçı ilə sığortalı arasında onun itkilərinin bir hissəsinin ödənilməsi üçün məsuliyyətin bölüşdürülməsi məqsədi ilə istifadə olunur. Bu sığorta prinsipinin reallaşdırılması iki problemin həllinə yönəlib: sığortalıları sığortalanmış əmlaka qayğı göstərməyə həvəsləndirmək; sığorta hadisələri zamanı sığorta kompensasiyası ödənişlərinin məbləğini azaltmaq.

5. Dəymiş zərərlər çərçivəsində kompensasiya. Bu prinsip əmlak sığortası sahəsində sığorta kompensasiyası ödənişlərinə yanaşmaları müəyyənləşdirir. Sığorta təzminatının məbləği sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalının baş vermiş zərərlərini ödəyə bilər [10, s.140].

6. Sığorta fondunda vəsaitlərin cəmləşməsi. Cəmiyyətdə sığorta münasibətlərinin fəaliyyət mexanizmi sığorta fondundan vəsaitlərin toplanması və xərclənməsi prosesinə əsaslanır. Vəsaitlərin cəmləşdirilməsi zərurəti sığorta prosesinin özü məntiqi və sığorta müqavilələri üzrə maliyyə öhdəliklərinin yerinə yetirilməsi üçün əsas kimi sığortaçının fəaliyyətinin kapitallaşdırılması zərurəti ilə müəyyənləşdirilir. Sığorta fondlarının formalaşmasının əsas mənbələri səhmdarların vəsaitləri və sığortalıların sığorta ödənişləri şəklində cəlb edilmiş vəsaitlərdir. Sığortaçıların sığorta fondlarının həcminin artırılması bütövlükdə sığorta sənayesinin inkişafı və fəaliyyətinin sabitliyi və bununla da onun iştirakçılarının sığorta maraqlarının qorunması üçün əsas ilkin şərtlərdən biridir.

7. Sığorta təminatının reallığı, tamlığı və mövcudluğu. Bu sığorta prinsipi daha çox sığortalılara şamil edilir. Sığorta müqaviləsi bağlayarkən, ilk öncə, sığortalı sığorta hadisəsi baş verdikdə sığorta təminatının alınmasının tamlığı, əlçatanlığı və vaxtında olması ilə maraqlanır. Sığorta müqaviləsində bağlanmış şərtlərə əsasən sığorta mühafizəsi bir sıra əsas və əlavə xidmətləri təmin edə bilər. Əsas xidmətlər sığorta müqavilələrində nəzərdə tutulmuş şərtlərlə sığorta məbləğinin ödənilməsi ilə bağlıdır [9, s.371].

İqtisadi transformasiyalar şəraitində aqrar sahənin inkişafında sığorta mexanizminin təkmilləşdirilməsi məsələləri

Sığorta prinsiplərinin növbəti qrupu sığorta şirkətlərinin fəaliyyəti ilə bağlıdır. Sığorta nəzəriyyəsi ilə bağlı elmi mənbələri araşdıraraq iddia etmək olar ki, sığortaçıların fəaliyyətində ən böyük təhlükə maliyyə, investisiya, portfel, katastrofik risklərdir. Sığortaçılar sığorta risklərini qəbul edərkən öz maliyyə və iqtisadi təhlükəsizliyini və bazarda rəqabət üstünlüklərini təmin etmək, kapitallaşmanı artırmaq məqsədilə müəyyən prinsiplərə əməl etməlidirlər. Bu prinsiplərə daxildir:

1. Diversifikasiya prinsipi. Sığortaçının risklərinin minimuma endirilməsi zərurəti ilə əlaqədar sığorta şirkətləri diversifikasiya prinsipindən istifadə edirlər ki, bu da sığorta üçün götürülmüş risklərin ərazi və sektorlar üzrə bölüşdürülməsi deməkdir. Sığorta şirkətləri göstərilən xidmətlərə görə maliyyə resursları toplamaqla və bununla da sığorta risklərini öz üzərinə götürməklə, mövcud sığorta müqavilələri üzrə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər iqtisadi imkanları təmin etməlidirlər.

2. Təkrarsığorta və birgə sığorta prinsipi. Təkrarsığorta ehtiyacı iri miqyaslı risklərin sığorta təminatını təmin etmək üçün maliyyə kapitalının (sığortaçıların və təkrarsığortaçıların) konsolida-

siyası ehtiyacı ilə müəyyənləşdirilir. Təkrarsığorta bazarının fəaliyyət göstərməsi onun kapitallaşmasına, sığortaçıların maliyyə ödəmə qabiliyyətinin gücləndirilməsinə, onların sığorta portfellərinin balanslaşdırılmasına və s. əsaslanır. Birgə sığorta obyekti bir müştərək müqavilə əsasında bir neçə sığortaçı tərəfindən sığortalandıqda istifadə olunur. Birgə sığorta müqaviləsinin bağlanması sığortaçıların hər birinin hüquq və öhdəliklərinin dəqiqləşdirilməsini nəzərdə tutur. Sığorta münasibətlərinin bu formasının üstünlükləri ondan ibarətdir ki, sığorta şirkətləri sığorta haqlarını itirmədən böyük riskləri sığortalayan zaman öz maliyyə imkanlarını birləşdirə bilirlər. Birgə sığortanın çatışmazlıqları sığorta hadisəsi baş verdikdə sığorta müqaviləsinin bağlanması və sığorta ödənişinin ödənilməsinin mürəkkəb mexanizmi hesab edilə bilər.


3. Rəqabət prinsipi. Sığorta bazarında rəqabət amilini onun gələcək inkişafı üçün əhəmiyyətli arqument kimi nəzərdən keçirmək məqsədəuyğundur. Alternativ sığorta proqramlarının mövcudluğu və rəqabətin təsiri altında risklərin ödənilməsi üçün müxtəlif variantlar sığortalıların yüksək keyfiyyətli sığorta müdafiəsi əldə etmək imkanlarını önəmli dərəcədə genişləndirir. Sığorta şirkətləri tərəfindən rəqabət prinsipinə əməl olunması onlara bazarda inhisarçı mövqedən yayınmağa və sığorta prosesinin iştirakçıları arasında maraq balansını təmin etməyə imkan verir.

Bildiyiniz kimi, hazırda aqrar sığortanın əsas növlərindən biri olan məhsul sığortası sığorta haqlarının subsidiyalaşdırılması şəklində büdcə vəsaitlərinin cəlb edilməsi ilə reallaşdırılır. Odur ki, aqrar sığorta sisteminin mühüm prinsipi dövlət dəstəyinin səmərəliliyi prinsipi olmalıdır. Beləliklə, sığortanın fundamental prinsiplərinə riayət olunması sığorta prosesi iştirakçılarının əmlak maraqlarının tarazlaşdırılması imkanını təmin edir. Sığorta prinsipləri aqrar sığorta müqavilələri bağlanarkən sığortaçıların və digər sığorta bazarı subyektlərinin dəyər sistemini tənzimləyir. Aqrar sığortanın prinsipləri öz mahiyyətində sığorta bazarının bütün iştirakçılarının sosial-iqtisadi maraqlarının reallaşdırılması məqsədilə müvafiq şəraiti təmin edən fundamental prinsipləri əks etdirir.

Aparılan tədqiqatlar belə qənaətə gəlməyə imkan verir ki, hazırda aqrar sığorta sisteminin məqsəd və fəaliyyət prinsiplərinin konkret siyahısı yoxdur, bu da onun inkişafı üçün dəqiq strategiyanın formalaşdırılmasını çətinləşdirir. Aqrar sığorta bir neçə alt sektoru birləşdirən xüsusi sığorta növüdür. Aqrar sığortanın ayrıca növə ayrılması kompleks sığorta növlərinin formalaşdırılması prinsiplərinə uyğun olaraq reallaşdırılır. Aqrar sığorta geniş anlayışdır və çoxlu müxtəlif əmlak və məsuliyyət sığortasını özündə birləşdirir. Buna görə o, həm əmlak sığortasının, həm də məsuliyyət sığortasının bir alt sahəsidir, bu da öz növbəsində sığortanın alt kateqoriyalarıdır. Aqrar sığorta sisteminin vəziyyəti onun inkişafına kompleks yanaşmanın formalaşdırılmasına təcili ehtiyac yaradır ki, bu da qanunvericilik baxımından üç əsas iştirakçının hər birinin yerini və rolunu tənzimləməli və nəzərə almalıdır: - kənd təsərrüfatı istehsalçıları, sığortaçılar və dövlət. Aqrar sığortada dövlətin iştirakı yalnız kənd təsərrüfatı məhsullarının sığortalanması xərclərinin bir hissəsini kompensasiya etmək üçün kənd təsərrüfatı istehsalçılarına subsidiyaların verilməsi ilə məhdudlaşır. Habelə, kənd təsərrüfatı sənayesinə dəymiş zərərin ödənilməsinə görə bütün məsuliyyət subsidiyalaşdırılmış sığortada iştirak edən sığorta şirkətlərinin üzərinə düşür. Bu mexanizm vasitəsilə dövlət ayrı-ayrı sığorta təşkilatlarının sığorta imkanları vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarına öz dəstəyini reallaşdırmağa çalışır. Bununla belə, kənd təsərrüfatı riskləri zamanla təzahürlərinin qeyri-bərabərliyini və kumulyativ xarakterini nəzərə almaqla onların sığortalanması üçün xüsusi şərtlər tələb edir. Aqrar sığortanın müxtəlif növləri vardır ki, onlar şəkil 1-də əks olunub.

Aqrar sığortanın ən geniş yayılmış formaları heyvandarlıq və məhsul sığortasıdır. Heyvandarlıq sığortası üçün məcburi tələblər mal-qaranın saxlanması və peyvəndlərin müəyyən bir qaydada aparılması zamanı sanitar normalara riayət edilməsidir. Təsərrüfat heyvanlarının sığortası müqavilə bağlayarkən nəzərə alınmalı olan bir sıra fərqləndirici xüsusiyyətlərə malikdir: hansı növ heyvanlar sığortaya cəlb edilir, hansı risklər sığortaçı tərəfindən ödənilir və hansı hallar sığorta polisi ilə əhatə olunmur. Heyvandarlıq sığortası üçün əsas tələblər: heyvanların sağlamlıq vəziyyəti haqqında məcburi baytar rəyi; heyvan öldükdə, qalıqların müayinə üçün saxlanması; itkilərin məbləği

hesablanarkən heyvanın sığorta hadisəsi zamanı dəyərinin nəzərə alınnması. İnkişaf etmiş heyvandarlıq sığortası sistemi heyvanların xəstəliyi və ya ölümü barədə məlumatların alınmasını sürətləndirə, infeksiya mənbəyini tez müəyyənləşdirə və bununla da istehsalçı, region və ölkə üzrə birbaşa itkiləri azalda bilər [8 s.50].



Şəkil 1. Aqrar sığortanın növləri

Mənbə: müəllif tərəfindən tərtib edilib

Məhsul sığortası müxtəlif risklər nəticəsində məhsul itkilərindən qorunmanı təmin edən sığorta növüdür. Məhsul sığortası icbari və ya könüllü ola bilər. Kənd təsərrüfatı istehsalçılarını əlverişsiz hava şəraiti və ya digər risklər nəticəsində itkilərdən qorumaq üçün icbari sığorta hökumət tərəfindən tətbiq oluna bilər. Könüllü məhsul sığortası özəl sığorta şirkətləri tərəfindən təmin edilir və fermerlər və aqrar sektorda fəaliyyət göstərən sahibkarlar üçün mövcud ola bilər. Məhsul sığortası müxtəlif sxemlərdən istifadə etməklə reallaşdırıla bilər. Şirkətə əmək xərcləri, yanacaq və sürtkü materialları, avadanlıqların amortizasiyası və toxumların alınması xərclərin faktiki dəyəri ödənilə bilər. Məhsul sığortası müqavilələri bir kənd təsərrüfatı mövsümü üçün bağlanır. Əkinlər məhv olarsa və ya zədələnərsə, sığortaçılar və müəssisə hesablama şəhadətnaməsinə uyğun olaraq yenidən səpin aparılması barədə birgə qərar qəbul edirlər. Amma təkrar səpin xərcləri əsas əkin xərclərinin qiymətindən aşağı olacaq. Əkinçilik sığortası aqrar sığorta növlərindən biridir. Məhsulu sığortalamaq üçün sığorta şirkəti ilə müqavilə bağlamaq lazımdır ki, bu da məhsulun növü, əkin sahəsi, iqlim şəraiti və s. kimi bir çox amillərdən asılı olaraq riskləri qiymətləndirir və sığortanın dəyərini təyin edir.

Nəticə

Beləliklə, müxtəlif ölkələrdə məhsul sığortası statistikası iqlim şəraitindən, iqtisadi vəziyyətdən və kənd təsərrüfatının inkişaf səviyyəsindən asılı olaraq önəmli dərəcədə dəyişə bilər. Bununla belə, ümumilikdə məhsul sığortası kənd təsərrüfatı istehsalçılarını risklərdən qorumaq və aqrar sənayesinin davamlı inkişafına töhfə vermək üçün önəmli vasitədir. Aqrar sahədə sığorta mexanizmlərinin təkmilləşdirilməsi baxımından bir qrup məsələlər diqqət mərkəzində saxlanılmalıdır:

- Sığortanın əsas xüsusiyyətlərindən biri zərərin ərazi vahidləri arasında və zamanla yenidən bölüşdürülməsidir;
- Kənd təsərrüfatı bitkiləri sığortalanarkən ölkənin müxtəlif regionlarında geniş ərazini əhatə etmək çox vacibdir;
- Heyvanları sığortalayarkən itkini ərazi vahidləri arasında bölüşdürmək lazımdır. Aqrar sığortanın təkrarsığorta növləri arasında kənd təsərrüfatı bitkilərinin sığortası da xüsusi yer tutur;
- Aqrar sığorta sisteminin əsas məqsədi kənd təsərrüfatı istehsalının təbii risklərdən səmərəli sığorta müdafiəsini yaratmaq olmalıdır. Onun əldə edilməsi vahid prinsiplərlə təmin edilir ki, on-

ların tam reallaşdırılması aqrar-sənaye kompleksində kənd təsərrüfatı istehsalının davamlı inkişafına təkan verəcək etibarlı sığorta mühafizəsi sisteminin yaradılması ola bilər və s.

ƏDƏBİYYAT

1. Gəncəyev, F.İ. Sığorta münasibətlərinin inkişafının risklərin qiymətləndirilməsi və azaldılmasına təsiri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş diss. avtoreferatı./– Gəncə, 2021. – 24 s.
2. Nağıyeva, G.V. Aqrar sığorta sahəsində dünya təcrübəsi və Azərbaycanda yeni sistemin formalaşması. Kənd təsərrüfatının iqtisadiyyatı – 2021. № 1 (35), – s.124-132.
3. Белова, Е.В. Организация сельскохозяйственного страхования с государственной поддержкой в растениеводстве: учебно-методическое пособие. – Саратов: АМИРИТ, – 2018, – 49 с.
4. Горбатовский, А. Сущность, факторы и принципы интенсификации сельскохозяйственного производства в новых условиях хозяйствования / А. Горбатовский // Аграрная экономика. – 2017. № 4(263), – с. 19-29.
5. Горбачева, А.С. Понятие сельскохозяйственного страхования с государственной поддержкой / А.С. Горбачева // Математическое и компьютерное моделирование в экономике, страховании и управлении рисками. – 2016. № 1, – с. 177-183.
6. Даренская, А.В. Понятие и особенности развития агрострахования. Форум молодых ученых, – 2023. 6(82), – с.186-189.
7. Калюк, В.И. Научно-теоретические аспекты страхования в аграрном секторе АПК / В.И. Калюк, Т.А. Запрудская // Сельское хозяйство - проблемы и перспективы: Сборник научных трудов / Под редакцией В.К. Пестиса. Том 43. – Гродно: Гродненский государственный аграрный университет, – 2018. – с. 123-129.
8. Максимова, С.Ю. Перспективы развития страхования животных сельскохозяйственного назначения / С.Ю. Максимова, Э.Б. Мурзагельдиева, Л.Ш. Оруджева // Региональные проблемы преобразования экономики. – 2021. № 4(126), – с. 47-55.
9. Принципы оказания комплексных услуг в аграрном страховании / Ю.В. Забайкин, Е.А. Зевелева, Т.С. Карандаева, Н.М. Третьякова // Экономика: вчера, сегодня, завтра. – 2021. – Т. 11, № 10-2, – с. 366-375.
10. Страхование: учебник / [Е.Г. Князева, О.А. Бойтуш, Т.Д. Одинокова, Е.А. Разумовская, Л.И. Юзвович, Ю.Т. Ахведиани] ; под общ. ред. Е.Г. Князевой ; М-во науки и высшего обр. Рос. Федерации, Урал. гос. экон. ун-т. – Екатеринбург: Изд-во Урал. ун-та, – 2019. – 241 с.

Хикмет Саид оглы Гамидов
Докторант, Азербайджанского Университета Кооперации,
E-mail: hamidovhikmet@mail.ru

Теоретические аспекты механизма страхования в развитии аграрной сферы в современное время

Резюме

Цель исследования - состоит в изучении теоретических аспектов механизма страхования в развитии аграрной сферы в современное время.

В качестве методологии исследования - использовались методы анализа, синтеза, сравнительного анализа и обобщения. При этом в фокусе внимания были научно-методические подходы ученых с исследованиями в направлении применения механизма страхования в аграрной сфере и повышения его эффективности.

Практическое значение исследования связано, прежде всего, с совершенствованием

механизма страхования при развитии аграрной сферы в современных условиях.

Результатами исследования - являются перспективы использования и разработки мер и механизмов повышения роли страхования в развитии аграрной сферы, которая является стратегической сферой во время нарастания глобальных угроз.

Оригинальность и научная новизна исследования - обоснована важностью роли страхового механизма в эффективной организации развития аграрной сферы в условиях глобальных трансформаций. Наряду с этим была дана важность оценки воздействия предлагаемого механизма страхования и обеспечения доступности страховых услуг. Обобщены рекомендации по подготовке и внедрению механизма страхования, который может быть эффективным для субъектов различного назначения в агропромышленном комплексе и высказаны предложения в этих направлениях.

Ключевые слова: глобальные трансформации, аграрный сектор, страхование, механизм страхования, страховые услуги, доступность страховых услуг, проблемы развития аграрного сектора, роль страхования в развитии агропромышленного комплекса.

Hikmat Said Hamidov
Doctoral student of Azerbaijan Cooperation University,
E-mail: hamidovhikmet@mail.ru

Theoretical aspects of the insurance mechanism in the development of the agricultural sector in modern times

Summary

The purpose of the research - is to study the theoretical aspects of the insurance mechanism in the development of the agricultural sector in modern times.

Research methodology - methods of analysis, synthesis, comparative analysis and generalization were used. At the same time, the focus of attention was on scientific and methodological approaches of scientists with research in the direction of applying the insurance mechanism in the agrarian sphere and improving its efficiency.

The practical significance of the research - is associated, first of all, with improving the insurance mechanism during the development of the agricultural sector in modern conditions.

The results of the research - there are prospects for use in the development of measures and mechanisms to increase the role of insurance in the development of the agricultural sector, which is a strategic area in an era of increasing global threats.

Originality and scientific novelty of the research, the importance of the role of the insurance mechanism in the effective organization of the development of the agricultural sector in the context of global transformations is substantiated. Along with this, the importance of assessing the impact of the proposed insurance mechanism and ensuring the availability of insurance services was stated. Recommendations for the preparation and implementation of an insurance mechanism that can be effective for entities for various purposes in the agro-industrial complex are summarized and proposals are made.

Key words: ***global transformations, agricultural sector, insurance, insurance mechanism, insurance services, availability of insurance services, problems of development of the agricultural sector, the role of insurance in the development of the agro-industrial complex.***